*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

19 aprel 2024-cü il №11 (9069) www.muallim.edu.az muallim@media.edu.az

**39 şagird 300 bal topladı**

## İlham Əliyev Qəbələ rayonunda Bum qəsəbə tam orta məktəbinin yeni binasının açılışında iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Qəbələ rayonunda 624 şagird yerlik Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbinin yeni binasının açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, qəsəbədə 1983-cü ildə tikilmiş məktəb binasının müasir tələblərə cavab verməməsi və qəzalı vəziyyətdə olması yeni binanın inşası zərurətini yaratmışdı. Bum qəsəbə tam orta məktəbinin tikintisinə 2021-ci ilin dekabrında başlanılıb. Məktəb binası 26 sinif otağından, kimya, fizika və biologiya laboratoriyalarından, 2 informatika kabinetindən, 2 texnologiya otağından, gənclərin çağırışaqədərki hazırlıq kabinetindən, kitabxana, 195 yerlik akt zalı, idman zalı və 80 yerlik yeməkxanadan ibarətdir.

Yeni dövrün çağırışlarına uyğun olaraq, müasir məktəblərin qurulması Azərbaycan dövlətinin prioritetləri sırasında başlıca yer tutur. Son 20 ildə Azərbaycanın mərkəzi şəhərlərindən tutmuş ən ucqar kəndlərinə qədər yaşayış məntəqələrində 3600 yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

## Təhsil Qarabağa qayıdır

### İşğaldan azad olunmuş ərazilərdə təhsil infrastrukturu yenidən qurulur

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində geniş bərpa-quruculuq işləri uğurla həyata keçirilir. Artıq həmin ərazilərin bir çoxunda sosial infrastruktur layihələri yekunlaşdırılıb, bir sıra layihələrin icrası istiqamətində isə işlər davam edir. Sürətlə gedən bərpa-quruculuq işləri işğaldan azad edilmiş ərazilərdə keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını tezləşdirməklə bölgənin dirçəldilməsinə, canlandırılmasına xidmət edir.

Elm və Təhsil Nazirliyi də bu prosesdə fəallıq göstərərək, işğaldan azad edilmiş ərazilərdə təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərini həyata keçirir. Nazirlik tərəfindən görülmüş və hazırda davam etdirilən işlərin xronikası ilə tanış olaq.

Ardı səh. 3

*İlham Axundov, Kanadanın Vaterloo Universitetinin professoru:*

## "Biz Qarabağ və Türkiyə-Azərbaycan universitetləri ilə dünya səviyyəli universitetlər qurmaq strategiyasını reallaşdıra bilərik"

Qarabağ Universiteti və Türkiyə-Azərbaycan Universiteti üçün necə bir inkişaf modelini örnək görmək olar? Yeni yaradılan universitetlərdə hansı müasir ixtisasların olması daha vacibdir? Gələcəkdə bu ali təhsil müəssisələrinin cəlbediciliyini necə artıra bilərik? Kanadanın Vaterloo Universitetinin riyaziyyat fakültəsinin riyaziyyat/-biznes və mühasibat uçotu üzrə bakalavr proqramlarının direktoru, professor İlham Axundov "Azərbaycan müəllimi"nə müsahibəsində bəhs etdiyimiz məsələlərə aydınlıq gətirib.

Ardı səh. 3



## "Xaricdə təhsil mənə özümü daha geniş miqyasda tanıtmağa imkan verəcək"



"Politologiya-siyasi elmlər üzrə ali təhsil almaq istəyirəm. Kiçik yaşlarımdan dövlət idarəçiliyinə və diplomatiyaya marağım var. Xatırlayıram ki, hələ 5-6 yaşlarımda televiziya kanallarında yerli və beynəlxalq siyasi tədbirləri böyük həvəslə və diqqətlə izləyərdim. Düşünürəm ki, müxtəlif millətlərin mədəniyyətlərinin qovuşduğu ABŞ-də diplomatiya üzrə təhsil almağım daha çox biliklər əldə etməyimə, özümü daha geniş miqyasda tanıtmağa, gələcəkdə siyasi elmlər üzrə elmi fəaliyyətlə məşğul olmağıma geniş imkanlar yaradacaq".

Bax səh. 4



## MAKSİMUM NƏTİCƏ GÖSTƏRƏN KƏND MƏKTƏBLİLƏRİ

Xəbər verdiyimiz kimi, tam (11 illik) orta təhsil səviyyəsi üzrə 10 mart tarixində keçirilmiş buraxılış imtahanlarının nəticələri açıqlanıb. 39 şagird maksimum - 300 bal toplayıb. 6-sı kənd məktəblərində təhsil alandır. Gənclər öz təəssüratlarını "Azərbaycan müəllimi" ilə bölüşüblər.

### "İmtahan sualları kifayət qədər rahat idi"

*Səbinə Yusifova, Qazax rayonunun Dəmirçi kənd tam orta məktəbin şagirdi:* - Birinci sinifdən bütün fənləri yaxşı oxuyub. Sonralar isə öz ixtisas qrupuna aid olan fənlərə xüsusi diqqət göstərib. Deyir ki, mükəmməl hazırlaşmadan ali məktəbə qəbul olunmaq mümkün deyil. Demək olar ki, bütün fənlər arasında bir məntiqi əlaqə var. Və bu əlaqələrlə fənlər bir-biri ilə zəncirvari bağlanır. Odur ki, ali məktəbə hazırlaşarkən iki-üç fənni yaxşı oxumaqla kifayətlənmək olmaz.

III qrupu seçdiyi üçün müvafiq fənlərə üstünlük verib. İmtahanda 3 saatı tam dəyərləndirib. Deyir ki, imtahan sualları kifayət qədər rahat idi. Sadəcə, çalışmaq lazımdır. Uğuruna isə həm ailə üzvləri, həm də məktəb müəllimləri çox seviniblər. Bakı Dövlət Universitetinin ingilisdilli "Hüquqşünaslıq" ixtisasına qəbul olmaq istəyir. Təhsilini xaricdə davam etdirməyi düşünür. Səbinənin böyük bacısı Selcan da hazırda Bakı Dövlət Universitetinin III kurs tələbəsidir.

### "Arzusu BDU-nun hüquq fakültəsinə daxil olmaqdır"

*Sevil Gülməliyeva, Quba rayonu Aşağı Atuc kənd tam orta məktəbin XI sinif şagirdi:* - "İmtahana ciddi hazırlaşmışdım. Adımı buraxılış imtahanında 100 faiz nəticə göstərən şagirdlər siyahısında görəndə sevinc hissi keçirdim". Məktəbinə başucalığı gətirən Sevil 11 illik təhsil həyatında bir sıra uğurlar qazanıb. Belə ki, o, rayon üzrə keçirilən bilik yarışlarında yüksək bilik və bacarıq göstərərək müvafiq yerlər tutub. 2022-2023-cü tədris ilində Respublika fənn olimpiadalarında Azərbaycan dili və ədəbiyyat fənni üzrə gümüş medala layiq görülüb.

Bütün fənlərdən qiymətləri "əla" olan Sevil Gülməliyevanın ən böyük arzusu Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmaqdır. Üzərində əməyi olan müəllimlərindən Təranə Bayramova, Nişanə Xeyrullayeva, Nərgiz Ağamirzəyevanın və Anar Hüseynovun adlarını xüsusi qeyd edərək onlara öz təşəkkürünü bildirib.

## Şagirdlərin regionlar üzrə bölgüsü

"Azərbaycan müəllimi" yüksək bal toplayan şagirdlərin regionlar üzrə bölgüsünü araşdırıb. Bakı şəhərindən 14 məktəbli yüksək bal toplayıb.

*Həsənli Rəsul Təbib oğlu* (Bakı şəhəri, Nizami rayonu, 62 nömrəli məktəb-lisey);
*Əzimli Ayla Nemət qızı* (Bakı şəhəri, Sabunçu rayonu, 28 nömrəli tam orta məktəb);
*Əlizadə Rəbiyyə Həsən qızı* (Bakı şəhəri, Nərimanov rayonu, 57 nömrəli tam orta məktəb);
*Hacızadə Nihad Samir oğlu* (Türkiyə Dəyanət Vəqfi, Bakı Türk liseyi);
*Xasıyeva Jalə Ceyhun qızı* (Bakı şəhəri, Nərimanov rayonu, 36 nömrəli tam orta məktəb);
*Quliyeva Leyla Eldar qızı* (Türkiyə Dəyanət Vəqfi, Bakı Türk liseyi);
*Məmmədsoy Həmidə Valeh qızı* (Bakı şəhəri, Kimya-biologiya təmayüllü lisey);
*Mirzəli Ülkər Səməd qızı* (Bakı şəhəri, Səbail rayonu, 329 nömrəli tam orta məktəb);
*Cəfərova Nərmin Ənvər qızı* (Bakı şəhəri, Nizami rayonu, 238 nömrəli tam orta məktəb);
*Həsənzadə Ayla Anar qızı* (Bakı şəhəri, Kaspi liseyi);
*Rüstəmli Fidan Sənan qızı* (Bakı şəhəri, Sabunçu rayonu, 72 nömrəli məktəb-lisey);
*Əliyev Məhəmməd Vüsal oğlu* (Bakı şəhəri, Ankara Məktəbi Məktəb-liseyi (əvvəlki 77 nömrəli tam orta məktəb));
*Əliyev İlkin Fariz oğlu* (Bakı şəhəri, Nərimanov rayonu, 36 nömrəli tam orta məktəb);
*Çələbi Nurlanə Elşən qızı* (Bakı şəhəri, S.Rüstəm adına Xarici dillər təmayüllü gimnaziya).

Ardı səh. 6

# "Sabahın alimləri"

## "Müsabiqə qaliblərimizin böyük hissəsi dünyanın ən aparıcı universitetlərinə qəbul olur"






Aprelin 17-də "Sabahın alimləri" XIII Respublika Müsabiqəsinin açılış mərasimi keçirilib.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Açılış mərasimində elm və təhsil naziri Emin Əmrullayev, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, millət vəkilləri, həmçinin media qurumlarının, özəl müəssisələrin rəhbər heyəti və digər qonaqlar iştirak ediblər.

Giriş nitqi ilə çıxış edən Təhsil İnstitutunun direktor müavini, layihə direktoru Fuad Qarayev müsabiqənin statistik göstəriciləri ilə bağlı hesabat təqdim edib. Fuad Qarayev 8 istiqamət üzrə qeydiyyatdan keçən, qəbul olunan və qiymətləndirilən layihələr barədə ətraflı məlumat verib.

Qeyd edilib ki, müsabiqə üzrə qeydiyyatdan keçən 652 layihədən 113-ü sərgidə iştirak hüququ qazanıb.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında tədbir iştirakçılarını salamlayıb və müsabiqədə iştirak edən şagirdlərə uğurlar arzulayıb.

2012-ci ildən keçirilən müsabiqəyə ölkə miqyasında marağın ildən-ilə artmaqda olduğunu vurğulayan nazir müasir təfəkkürlü və yaradıcı düşüncəli gənclərin bilik və bacarıqlarının üzə çıxarılması, onların yüksək standartlara uyğun tədqiqatçı-mütəxəssis kimi formalaşmasında onun mühüm rolundan danışıb.

Gənclər və idman nazirinin müavini İndira Hacıyeva da öz növbəsində layihə finalçılarına müvəffəqiyyətlər arzulayıb. Nazir müavini bildirib ki, layihələrin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində böyük nailiyyətlər əldə edilir.

Daha sonra müsabiqə ilə bağlı videoçarx nümayiş etdirilib.

Tədbirin rəsmi hissəsindən sonra qonaqlar finalçıların əl işləri ilə tanış olublar.

Qeyd edək ki, müsabiqədə növbəti 2 gün ərzində şagirdlərin 8 istiqamət (riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri) üzrə elmi-tədqiqat layihələri dəyərləndiriləcək. Bununla yanaşı, qaliblər sırasından seçilən məktəblilər ABŞ-də keçirilən sərgidə ölkəmizi təmsil edəcəklər.

Müsabiqənin keçirilməsində məqsəd elmi-tədqiqat və yaradıcılıq potensialı olan istedadlı şagirdləri aşkara çıxarmaq, onlarda tənqidi düşünmə, problem həlletmə, vaxtın idarə olunması, natiqlik və ünsiyyət kimi bacarıqları inkişaf etdirmək, ali təhsil müəssisələri və elmi təşkilatlarla ümumtəhsil məktəbləri arasında əlaqələri genişləndirmək, həmçinin şagirdlərin oxşar maraqları olan həmyaşıdları ilə şəbəkələşməsini təmin etməkdir.

Aprelin 18-də "Sabahın alimləri" XIII Respublika Müsabiqəsinin final mərhələsinin ikinci günündə riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri üzrə 113 elmi-tədqiqat layihəsi iştirak hüququ qazanıb.

Qaliblər sırasından seçilən məktəblilər ABŞ-də keçirilən sərgidə ölkəmizi təmsil edəcəklər.

**Emin Əmrullayev**

"Biz bu müsabiqədə iştirak edən şagirdlərlə qürur duyuruq, lakin burada iştirak edə bilməyən istedadlı şagirdlərimiz də var.

Bizim müxtəlif müsabiqə qaliblərimizin böyük hissəsi dünyanın ən aparıcı universitetlərinə qəbul olur.

Hədəfimiz hər bir bölgə və rayonda fizika-riyaziyyat və kimya-biologiya təmayüllü liseylərin sayının artırılmasıdır.

Biz riyaziyyat, fizika, kimya, biologiya kimi texniki sahələr üzrə bacarıqları ölçmək üçün düzgün üsulları tapmışıq.

İdman və mədəniyyət sahəsi üzrə istedadlı şagirdlər üçün də yarışlar təşkil olunacaq".

## Emin Əmrullayev dünyanın nüfuzlu universitetlərinə qəbul olunan olimpiada qalibləri ilə görüşüb

Aprelin 8-də elm və təhsil naziri Emin Əmrullayev beynəlxalq və respublika fənn olimpiadalarının qalibləri, dünyanın nüfuzlu universitetlərinə qəbul olunan gənclərlə görüşüb.

Nazir onları qazandıqları uğurlara görə təbrik edərək gələcək təhsil həyatlarında nailiyyətlər arzulayıb.

Sonra nazir gənclərə öz tövsiyələrini verib, onlarla səmimi söhbət aparıb və suallarını cavablandırıb.

Görüşün sonunda hədiyyələr təqdim edilib.







## Elm və təhsil naziri Qəbələ məktəblərində olub

Aprelin 9-da elm və təhsil naziri Emin Əmrullayev Qəbələ rayonuna səfəri çərçivəsində Vəndam qəsəbəsi 1 nömrəli tam orta məktəbin kollektivi ilə görüşüb. Nazir həmçinin məktəbdə tədris prosesini izləyib və təhsilalanlar üçün yaradılmış şəraitlə tanış olub.

Daha sonra elm və təhsil naziri buraxılış imtahanında 300 bal toplamaqla ən yüksək nəticə göstərmiş Səidə Rəhimovanın təhsil aldığı Nohurqışlaq kənd tam orta məktəbində olub. Emin Əmrullayev XI sinif şagirdləri ilə görüşərək səmimi söhbət edib, məktəblilərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

## Təcrübə Əsaslı Öyrənmə

### *3-cü Beynəlxalq Konfransın açılış mərasimi olub*

Aprelin 12-də Bakıda 3-cü Beynəlxalq Təcrübə Əsaslı Öyrənmə Konfransının açılış mərasimi olub.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə təqdimatında "Azərbaycan Respublikasının 2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq, təhsilin qarşısında duran vəzifə və hədəflərdən, həmçinin son dövrlərdə Elm və Təhsil Nazirliyi tərəfindən aparılan işlərdən danışıb. Kənan Kərimzadə qeyd edib ki, hazırda əsas təhsil hədəfləri sırasında ölkəmizin beynəlxalq qiymətləndirmələrdə mövqeyinin yaxşılaşdırılması və 3 universitetimizin ilk 800-lükdə təmsilinə nail olmaq yer alır.

Avropa Azərbaycan Məktəbinin baş direktoru Françesko Bançini çıxışında bildirib ki, konfransın məqsədi təhsil liderlərindən ən müasir yanaşmaları öyrənmək, təhsil sahəsinə dair müzakirələr aparmaq, yeni ideya və strategiyaları araşdırmaqdır. Baş direktor həmçinin konfransda Qazaxıstan, Özbəkistan, Gürcüstan, Türkiyə və digər ölkələrdən nümayəndələrin iştirak etdiyini vurğulayıb və tədbir çərçivəsində həm beynəlxalq, həm də yerli səviyyədə bilik və təcrübə mübadiləsi aparılacağını diqqətə çatdırıb.

Qeyd edək ki, təhsil mütəxəssisləri, eləcə də direktor və müəllimlərin iştirakı ilə keçirilən konfransda 3 gün ərzində 60-dan çox seminar təşkil olunub.

# TƏHSİL QARABAĞA QAYIDIR

## İşğaldan azad olunmuş ərazilərdə təhsil infrastrukturu yenidən qurulur

Əvvəli səh. 1







**Ağdam**

2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən işğaldan azad edilmiş Ağdam şəhərində təməli qoyulmuş 960 şagird yerlik 1 nömrəli tam orta məktəbin tikintisinə başlanılıb. Tikinti işlərinin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur. Dövlət başçısının "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə dəyişiklik edilməsi haqqında Sərəncamına əsasən, Ağdam şəhər 2 nömrəli 160 yerlik körpələr evi-uşaq bağçasının və Ağdam şəhər 2 nömrəli 960 şagird yerlik tam orta məktəb binalarının tikintisinin layihələndirilməsi 2024-cü ildə başa çatdırılacaq.

**Füzuli**

2022-ci ilin sentyabr ayında Özbəkistan Hökumətinin dəstəyi ilə Füzuli şəhərində 960 şagird yerlik ümumtəhsil məktəbinin tikintisinə başlanılıb. 23 avqust 2023-cü il tarixində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və birinci xanım Ziroatxon Mirziyoyeva Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər.

Füzuli şəhərində layihələndirilməsi və tikintisi nəzərdə tutulmuş Füzuli Peşə Liseyinin 10 may 2022-ci il tarixində ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən təməli qoyulub. Liseyin tikintisi ilə bağlı layihə-smeta sənədləri hazırlanıb, tikinti işlərinə başlanılıb və 2025-ci ildə başa çatdırılması nəzərdə tutulur.

**Şuşa**

İşğaldan azad olunmuş Şuşa şəhərində 12 may 2021-ci il tarixində Prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş 960 şagird yerlik 1 nömrəli tam orta məktəbin tikintisinə başlanılıb, 2023-cü ilin sentyabrında təmir-tikinti işləri başa çatdırılıb. Bundan əlavə, Şuşa şəhərində Şuşa Realnı Məktəbinin binasının layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında ölkə başçısı İlham Əliyev tərəfindən müvafiq sərəncam imzalanıb. Hazırda Şuşa Realnı Məktəbinin layihələndirilməsi və bərpası ilə bağlı layihə-smeta sənədləri hazırlanıb, tarixi binanın qorunması işləri tamamlanıb, tikinti işlərinə başlanılıb və 2025-ci ilin sonunda başa çatdırılması planlaşdırılır.

**Cəbrayıl**

2021-ci il oktyabrın 4-də dövlət başçısı İlham Əliyev tərəfindən Cəbrayıl şəhərində təməli qoyulmuş akademik Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin tikintisinə başlanılıb və işlərin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

**Kəlbəcər**

Kəlbəcər şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Prezident İlham Əliyev tərəfindən 7 sentyabr 2022-ci il tarixli Sərəncam imzalanıb. Məktəbin tikintisi ilə bağlı layihə-smeta sənədləri hazırlanıb, tikinti işlərinə başlanılıb və 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

**Qubadlı**

Dövlət başçısının "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə dəyişiklik edilməsi haqqında Sərəncamına əsasən, Qubadlı şəhərində 600 şagird yerlik tam orta məktəb binasının tikintisinin layihələndirilməsinə başlanılıb və layihələndirmə işləri 2024-cü ildə başa çatacaq.

**Laçın**

Laçın şəhər 2 nömrəli tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası məqsədilə Prezident İlham Əliyev tərəfindən 22 sentyabr 2022-ci il tarixli Sərəncam imzalanıb. Sərəncama əsasən, məktəb binasında Elm və Təhsil Nazirliyi tərəfindən bərpa-gücləndirmə və əsaslı təmir işlərinə başlanılıb və yüksək keyfiyyətlə tamamlanıb. 2023-cü il avqustun 25-də ölkə başçısı İlham Əliyev ümumi təhsil müəssisəsinin açılış mərasimində iştirak edib.

Bununla yanaşı, Prezidentin müvafiq sərəncamına uyğun olaraq, 2023-cü ildə Laçın rayonu Zabux kənd 176 şagird yerlik tam orta məktəbin binasında bərpa gücləndirmə və əsaslı təmir işləri başa çatdırılıb.

**Zəngilan**

Zəngilan şəhər 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə ölkə başçısı İlham Əliyev tərəfindən 7 sentyabr 2022-ci il tarixli Sərəncam imzalanıb. 960 şagird yerlik tam orta məktəb binasının tikintisi ilə bağlı layihə-smeta sənədləri hazırlanıb və tikinti işlərinin 2025-ci ildə başa çatdırılması nəzərdə tutulur. Sərəncama əsasən, Zəngilan şəhərində 160 yerlik körpələr evi-uşaq bağçasının tikintisinin layihələndirilməsinə başlanılıb və 2024-cü ildə layihələndirilmə işləri başa çatacaq. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Zəngilan rayonunun Ağalı kəndində müasir tələblərə cavab verən 288 şagird yerlik tam orta ümumtəhsil məktəbi və 60 yerlik məktəbəqədər təhsil müəssisəsi inşa edilərək istifadəyə verilib.

**Hadrut, Talış və Suqovuşan**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2023-cü il mayın 5-də Hadrut qəsəbəsində 360 şagird yerlik tam orta məktəbin bərpası işləri ilə tanış olublar. İşğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin davamı olaraq Xocavənd rayonu Hadrut qəsəbəsində 360 şagird yerlik tam orta məktəb binasının bərpa-gücləndirmə və əsaslı təmiri nəzərdə tutulur, 2024-cü ildə layihələndirilməsi başa çatacaq.

Tərtər rayonunun Talış kəndində müasir tələblərə cavab verən 144 şagird yerlik ümumtəhsil məktəbi, 78 yerlik məktəbəqədər təhsil müəssisəsi və Suqovuşan kəndində 144 şagird yerlik ümumtəhsil məktəbi inşa edilərək istifadəyə verilib.

Laçın şəhəri 1 nömrəli 400 şagird yerlik tam orta məktəb binasının tikintisinin layihələndirilməsi, Xocalı rayonu Malıbəyli kənd 432 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi, Xankəndi şəhəri Kərkicahan qəsəbə 624 şagird yerlik tam orta məktəbin, Xankəndi şəhəri Kərkicahan körpələr evi-uşaq bağçasının əsaslı təmirinin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur. Xocalı şəhər körpələr evi-uşaq bağçasının, Xocalı şəhər tam orta məktəbin əsaslı təmiri, Ağdam, Zəngilan, Qubadlı peşə təhsili mərkəzlərinin tikintisinin layihələndirilməsi, Şuşa şəhər Peşə Təhsili Mərkəzinin layihələndirilməsi, Xankəndi şəhərində Qarabağ Universitetinin əsas korpusunun təmiri, həmçinin tələbələrə şəraitin yaradılması üçün yataqxanaların təmiri 2024-cü ildə başa çatdırılacaq.

**Niyazi RƏHİMOV**

---

*İlham Axundov, Kanadanın Vaterloo Universitetinin professoru:*

# "Biz Qarabağ və Türkiyə–Azərbaycan universitetləri ilə dünya səviyyəli universitetlər qurmaq strategiyasını reallaşdıra bilərik"

Əvvəli səh. 1

*- Qarabağ Universiteti və Türkiyə-Azərbaycan Universiteti üçün necə bir inkişaf modelini örnək götürmək olar?*

- Dünya səviyyəli universitetlər bir ölkənin ali təhsilinin gücünü göstərməklə yanaşı, həm də ölkədə elmin, texnologiyanın və iqtisadiyyatın hərtərəfli inkişafının mühüm təzahürüdür. Biz ölkəmizdə fəaliyyəti planlaşdırılan Qarabağ və Türkiyə-Azərbaycan universitetləri ilə dünya səviyyəli universitetlər qurmaq strategiyasını reallaşdıra bilərik. Bu universitetlərin beynəlxalq rəqabət qabiliyyətini də artırmaq olar. Bundan ötrü biz, ilk növbədə, tədris, tədqiqat və idarəetmədə mükəmməlliyə nail olmaq üçün qısamüddətli və uzunmüddətli məqsədləri, prioritetləri və strategiyaları əks etdirən strateji plan hazırlamalıyıq. İnkişaf etməkdə olan sahələrə, sənaye tələblərinə, sosial ehtiyaclara və eyni zamanda missiyamıza və resurslarımıza uyğun gələn yüksək keyfiyyətli akademik proqramlar təklif etməliyik. Bütün proqramlarda riyazi (kəmiyyət) bacarıqlara xüsusi diqqət verməliyik, çünki hazırda sənayenin və biznesin bir çox aspektləri riyazi-statistik (kəmiyyət) təhlili apara bilən insanlardan asılıdır. Yaxın gələcəkdə hər kəs bir az texniki olacaq, heç bir sənaye sahəsi və ya karyera texnologiyasız olmayacaq!

*- Yeni yaradılan universitetlərin cəlbediciliyini necə artıra bilərik?*

-Məlumdur ki, dünya universitetlərini beynəlxalq aləmdə tanıdan və inkişafına mühüm təkan verən amillərdən biri ali təhsil müəssisəsinin cəlbediciliyinin artırılmasıdır. Universitetlərin cəlbediciliyini artırmaq üçün isə biz dünyanın aparıcı universitetləri, tədqiqat institutları və sənaye tərəfdaşları ilə əməkdaşlıq qurmaqla beynəlmiləlləşməni təşviq etməliyik. Tələbə və müəllim mübadiləsini, birgə tədqiqat layihələrini və qlobal təşəbbüsləri dəstəkləməliyik. Akademik məsləhət xidmətləri, karyera məsləhətləri, mentorluq proqramları, təcrübi öyrənmə imkanları təklif etməklə tələbə uğurlarına üstünlük verməliyik. Şəxsi inkişafa, liderliyin inkişafına kömək edən canlı kampus həyatı yaratmalıyıq. Güclü liderlik və hesabatlılıq mexanizmləri ilə şəffaf və effektiv idarəetmə strukturları formalaşdırmalıyıq.

*- Dünya səviyyəli universitet necə qurulmalıdır?*

- Qəbul etmək vacibdir ki, dünya səviyyəli universitetləri qurmaq uzunmüddətli bir işdir, bunun üçün mütləq standart yoxdur və bu, bütün maraqlı tərəflərdən davamlı öhdəlik, investisiya, əməkdaşlıq, transformasiyalı liderlik, professorlar, proqramlar, fənlər, tələbələr və elmi araşdırmalar tələb edir.

Qarabağ və Türkiyə-Azərbaycan universitetləri struktur və ölçü baxımından fərqli olsalar da, onların ilk missiyaları oxşar olub tələbələrə yüksək səviyyəli təhsil vermək, tədqiqat aparmaq, iqtisadiyyat və mədəniyyət daxil olmaqla, cəmiyyətə töhfə vermək olmalıdır. Daha sonra isə bu məqsədlərdən bir qədər də kənara çıxmalı və nəticədə unikal imkanlar və təşəbbüslər təqdim edən dünya səviyyəli akademik mərkəz qurmaq olmalıdır.

*- Türkiyə-Azərbaycan Universitetini modern ali təhsil müəssisəsi kimi necə təsəvvür edirsiniz?*

- Bildiyim qədər, Türkiyə-Azərbaycan Universitetində klassik universitet modelindən istifadə olunmayacaq. Türkiyə və Azərbaycanın ən yaxşı universitetlərini bir kampusda birləşdirərək, biz ənənəvi təhsil modellərinin sərhədlərini keçməyi planlaşdırırıq. Belə modelə bəzən ədəbiyyatda multiversitet də deyilir. Dünyada ilk belə multiversitet Qatarın paytaxtı Dohada yaradılıb. Dünyanın səkkiz aparıcı universitetinin məşhur proqramlarını özündə birləşdirən Doha kampusu 15-ə yaxın ixtisaslarda bakalavr, magistr və fəlsəfə doktoru proqramlarını təqdim edir. Bu kampus bölgədə ən güclü təhsil mərkəzi olmaqla yanaşı, həm də kompleks siyasət problemlərindən tutmuş nanotexnoloji araşdırmalara qədər çox genişprofilli bir tədqiqatlar laboratoriyasına çevrilib. Biz də belə bir kampusu Azərbaycanda qurub daha sonra başqa universitetləri də bu kampusa cəlb edərək region üçün çox önəmli bir konsentrator (Hub) universitet qura bilərik və o zaman bu universitetə qonşu ölkələrdən olan böyük axını təsəvvür etmək çətin deyil.

*- Qarabağ Universitetində tədrisin təşkili və tədris mühiti barədə fikirlərinizi bilmək maraqlı olardı.*

- Qarabağ Universitetinə gəlincə, düşünürəm ki, ilk olaraq, biz 2+2 layihəsi üzrə (2 il Qarabağda və 2 il Bakıda) bölgəyə tələbə axınını sürətləndirə bilərik. Ona görə də bu ali təhsil müəssisəsi ADA Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti və digər qurumlarla əməkdaşlıq müqavilələri bağlamalıdır. İki universitetdə təhsil almaqla tələbələr müxtəlif akademik təcrübələrdən faydalana, müxtəlif resurslara çıxış əldə edə və potensial peşəkar şəbəkələrini genişləndirə bilərlər.

Qarabağ Universitetində dərslər intensiv modullar əsasında da aparıla bilər. Bir universitet kursunun, məsələn, iki həftə ərzində intensiv şəkildə tədris olunması mümkündür. Bunun üçün strukturlaşdırılmış cədvəl təqdim etməklə, diqqətli planlaşdırma, effektiv vaxt idarəçiliyi və əsas təlim nəticələrə diqqət yetirmək tələb olunur. Araşdırmalar göstərir ki, müəllimlər tədris texnikalarını dəyişdirərək intensiv kursları uzun bir semestr ərzində olduğundan daha konstruktiv, təcrübi öyrənmə və müzakirələri özündə birləşdirən şəkildə keçə bilirlər. Hər kursun sonunda tələbələrin kurs materialını ümumi başa düşməsini qiymətləndirmək üçün yekun qiymətləndirmə aparılır.

Düşünürəm ki, bu universitetdə həm də azərbaycanşünaslıq mərkəzi, etnoqrafik zal, ilkin hərbi hazırlıq otaqları olmalıdır. Ziyarətçilər və universitetin rəsmi nümayəndə heyətləri üçün Vətən müharibəsində şəhid olmuş tələbə gənclərin xatirəsinə həsr olunmuş abidə də ucaldılmalıdır. Dövlət, siyasi və mədəniyyət xadimləri vaxtaşırı universitetdə olub, mühazirələr oxumalıdırlar.

Biz yüksək istedadları bu universitetlərə cəlb etməklə institusional islahatları dərinləşdirməliyik və akademik azadlığa icazə verməliyik. İdarəetmə sistemi islahatlarını həyata keçirmək, bu universitetlərə daha çox muxtariyyət vermək, elmi qiymətləndirmə sisteminin qurulmasına kömək etmək və istedadların sərbəst inkişafı üçün daha yaxşı şərait yaratmalıyıq.

**Oruc MUSTAFAYEV**

# Məktəblinin dostlarının dəstəkləyici rolu təqdirəlayiqdir

## "Məktəblinin dostu" layihəsinin fəaliyyətinə dair elmi araşdırmanın təqdimatı keçirilib



Aprelin 18-də Elm və Təhsil Nazirliyinin "Məktəblinin dostu" layihəsinin fəaliyyəti ilə bağlı tədbir keçirilib.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, millət vəkilləri, həmçinin media qurumlarının rəhbər heyəti və digər qonaqlar iştirak ediblər.

Giriş nitqi ilə çıxış edən elm və təhsil nazirinin müşaviri Rüstəm Ağayev layihə barədə məlumat verib. Bildirilib ki, "Məktəblinin dostu" layihəsi 2016-cı ildən fəaliyyət göstərir və əhatə dairəsi genişləndirilərək bu tədris ilindən Gəncə, Lənkəran, Masallı və Cəlilabad şəhərlərində ümumilikdə 12 məktəbdə tətbiq olunur. Beləliklə də, layihə Bakı, Sumqayıt, Abşeron da daxil olmaqla hazırda ölkə üzrə 238 məktəbi əhatə edir.

Rüstəm Ağayev həmçinin qeyd edib ki, məktəblinin dostlarının əsas vəzifələri müəllimlər, şagirdlər üçün təhlükəsiz mühit yaratmaq, ilk tibbi və psixoloji yardım göstərmək, mütəmadi olaraq şagird, valideyn, təlim-tərbiyə müəssisələrinin kollektivi və rəhbərliyi ilə maarifləndirmə, diaqnostik işlər aparmaqdır.

Elm və təhsil nazirinin müşaviri Azər Abizadə çıxışında "Məktəblinin dostu" layihəsinin fəaliyyəti ilə bağlı aparılmış elmi araşdırmanın nəticələrini təqdim edib. Nazir müşaviri diqqətə çatdırıb ki, araşdırma çərçivəsində layihənin tətbiq olunduğu məktəblərdə şagird və valideynlər arasında sorğu aparılıb. Sorğular məktəblinin dostları tərəfindən şagirdlərə tibbi, psixoloji yardımın göstərilməsi, onlarda zərərli vərdişlərin aradan qaldırılması və digər istiqamətləri əhatə edib.

Sonra sözügedən layihənin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Daha sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev layihənin uğurlu təşəbbüslərdən biri olduğunu vurğulayıb. Nazir bildirib ki, təhsil müəssisələrində təhlükəsiz mühitin daha da təkmilləşdirilməsində məktəblinin dostlarının dəstəkləyici rolu təqdirəlayiqdir.

Ölkənin bütün ümumi təhsil müəssisələrində bu layihənin tətbiqinin arzuedilən olduğunu deyən Emin Əmrullayev diqqətə çatdırıb ki, layihə gənclərin məşğulluğuna da müsbət təsir göstərir. Emin Əmrullayev həmçinin vurğulayıb ki, xüsusilə pedaqoji ixtisasları bitirən məzunlar üçün bu layihədə işləmək onların məktəb mühitində yaxşı təcrübə toplamaları və təhsil sahəsində karyeralarını qurmalarına şərait yaradır.

Sonda tədbir iştirakçılarının layihə ilə bağlı rəyləri dinlənilib və müzakirələr aparılıb.

# Təhsildə vətəndaş məmnuniyyəti, obyektivlik və əlçatanlıq



## Qəbul prosesi elektronlaşan təhsil müəssisələrinin şəbəkəsi genişlənir

Dünən Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov mətbuat konfransı keçirib. O, məktəbəqədər və ümumi təhsil müəssisələrində nəzərdə tutulan yeniliklər barədə məlumat verib. E.Bağırov bu və ya digər məsələlərə də toxunub.

Sertifikatlaşdırma bu ilin iyun ayında keçiriləcək. 31035 müəllim sertifikatlaşdırmaya cəlb olunacaq

Məktəbdənkənar təhsil müəssisələrinə qəbul elektronlaşdırılacaq

Birinci siniflərə sənəd qəbulu elektron qaydada 1 may tarixindən başlayacaq və 13 sentyabra qədər davam edəcək

40-a yaxın bağça müdiri işdən çıxarılıb, 200-ə yaxın müdirə töhmət verilib və xəbərdarlıq edilib

Sertifikasiyadan keçə bilməyən 200-ə yaxın müəllim öz ərizəsi ilə işdən azad edilib

Bağçaların sayının artırılması üçün özəl sektorla əməkdaşlığa dair mexanizmlər hazırlanıb

82 minə yaxın şagird məktəbəhazırlıq qrupundan avtomatik olaraq I sinfə keçiriləcək

Son 3 ayda bağçalara 39 müdir təyinatı olub. Cari ildə 17 min tərbiyəçi-müəllimin diaqnostik qiymətləndirilməsi həyata keçiriləcək

# "Xaricdə təhsil mənə özümü daha geniş miqyasda tanıtmağa imkan verəcək"

## Dünyanın nüfuzlu ali məktəblərindən qəbul alan yeniyetməmizin uğur hekayəsi

**Tanıtım**



Ötən həftə daha bir Azərbaycan məktəblisinin uğuruna şahid olduq. Bakı şəhəri Namiq Axundov adına 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi Gülnur Ağakişiyeva ABŞ-nin 5 nüfuzlu ali məktəbindən qəbul alıb. Belə ki, o, "Illinois Urbana Champaign", Purdue və Penn Dövlət universitetlərində təhsil almaq imkanı əldə edib, Corc Vaşinqton Universitetindən 15.000 dollar, Fordham Universitetindən isə illik 25.000 dollar dəyərində təqaüd hüququ qazanıb.

Artıq bu ali təhsil müəssisələrinin siyahısına Kanadanın "British Columbia" Universiteti də əlavə olunub. "Azərbaycan müəllimi" qəzetinin qonağı olan Gülnur Ağakişiyeva 11 illik məktəb həyatından, əldə etdiyi uğurlarından, gələcək hədəflərindən söz açıb.

### Uğurlarımın ilk başlanğıc məkanı məhz məktəbdir

Gülnur bir şagird olaraq 11 illik təhsil həyatının onun üçün olduqca maraqlı və kifayət qədər uğurlu nəticələrlə yadda qaldığını deyir: "Oxuduğum illər ərzində müxtəlif fəaliyyətlərim və nailiyyətlərim olub. Və mənim üçün uğurlarımın ilk başlanğıcı məktəbdir. VIII sinifdə Respublika fənn olimpiadalarının Azərbaycan dili və ədəbiyyat fənni üzrə yarımfinalçısı, IX sinifdə isə finalçısı olmuşam. X sinifdə Azərbaycan Linqvistika Olimpiadasının finalçısı və "HIPPO" beynəlxalq ingilis dili olimpiadasının respublika mərhələsinin birincisi olaraq ölkəmizi Türkiyədə təmsil etmişəm".

Gülnur ABŞ hökuməti tərəfindən maliyyələşdirilən "FLEX" (Future Leaders Exchange Program) proqramının finalçısıdır. Builki "Teen Eagle" beynəlxalq ingilis dili olimpiadasının qızıl mükafatçısıdır. Məktəbdə öyrəndiklərini yarış və müsabiqələrdə əldə etdiyi nəticələri ilə təsdiqləyən yeniyetmə oxuduğu təhsil ocağının ictimai həyatında, eləcə də ölkəmizdə keçirilən tədbirlərdə, həmçinin bir sıra ölkələrdə təşkil olunan bilik yarışlarında, təhsil proqramlarında fəallığı ilə seçilib. O, "Bir könüllü" Tələbə Təşkilatının təşəbbüsü, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə təşkil edilən "Məktəbli könüllü" proqramının üzvüdür. Proqram çərçivəsində bu yaxınlarda keçirilən forumda təlimçi kimi çıxış edib. Yüksək reytinqli xarici ali təhsil müəssisələrinə qəbul almış "Məktəbli könüllü" proqramının fəallarından biri kimi məktəblimiz müxtəlif mübadilə, təqaüd proqramları və öz təcrübəsi barədə ətraflı məlumat verib.

Gülnur adıçəkilən proqramın onun bir yeniyetmə olaraq sosial inkişafında, komanda işini formalaşdırmaq təcrübəsi əldə etməyində, əməkdaşlıq, liderlik, analitik düşüncə keyfiyyətlərini gücləndirmək baxımından xüsusi önəmi olduğunu söyləyir: "Mənim üçün belə layihələrdə iştirak etmək olduqca maraqlıdır. Elm və Təhsil Nazirliyinin şagirdlər üçün keçirdiyi bütün layihələrin, müxtəlifyönümlü müsabiqələrin, yarışların bizim istedadımızın üzə çıxarılmasında, bilik və bacarığımızın inkişaf etdirilməsində, mən deyərdim ki, rolu əvəzsizdir".

Gülnurun elmi-tədqiqat işlərinə də xüsusi marağı var. IX sinifdən məktəbdə fəaliyyət göstərən "Kiçik Akademiya"nın üzvüdür. O, "Vodevil" adlı 30 səhifəlik ədəbi araşdırma aparıb. Riyaziyyat fənni üzrə isə iki layihə hazırlayıb ki, onlardan biri "Kiçik Akademiya"ların rayon mərhələsində təmsil etdiyi məktəbin adını fərqlənən təhsil ocaqlarından edib.

### "Doğrusu, bu xəbəri çox sakit qarşıladım..."

XI illik məktəb həyatının son dönəmini başa vurmaqda olan Gülnuru qarşıda xaricdə ali təhsil almaq imkanları gözləyir. Qeyd etdiyimiz kimi o, ABŞ-nin ən nüfuzlu universitetlərinə, eləcə də Kanadanın bir ali təhsil müəssisəsindən qəbul və təqaüd hüququ qazanıb. Özü bu barədə belə deyir: "Doğrusu, bu xəbəri alanda heç bir şiddətli emosiya keçirmədim, əksinə, deyərdim ki, çox sakit qarşıladım. Yəqin ki, bu, mənim özgüvənliyimdən, təmkinli xarakterimdən və özümə qarşı olan standartlarımın yüksək olmasından irəli gəlir. Mənə elə gəlir ki, elə belə də olmalı idi.

Yeri gəlmişkən onu da deyim ki, mən beynəlxalq sertifikatlardan SAT imtahanından (Scholastic Aptitude Test) 1600 maksimum baldan 1560 və TOEFL-dan isə (Test of English as a foreign language) 120 maksimum baldan 114 kimi nəticələr göstərmişəm.

Bilirsiniz ki, ABŞ-nin nüfuzlu ali təhsil ocaqlarına qəbul prosesi kifayət qədər mürəkkəb, daha dəqiq desək, çox mərhələlidir. Bu proses özündə məktəbdəki qiymət cədvəlindən tutmuş, akademik və qeyri-akademik məlumatların, nailiyyətlərin, beynəlxalq sertifikatların müraciət formatında öz əksini tapması, müəllimlərdən və digər münasib şəxslərdən tövsiyə məktublarının alınması, universitetlərin hər birində müxtəlif tələbləri olan inşaların yazılması kimi mərhələləri əhatə edir. Bu prosesdə mən beynəlxalq sertifikatlarımı əldə etməkdə əməyi keçən müəllimlərimin, hazırda xarici universitetlərin tələbəsi olan dostlarımın və təhsil məsləhətçilərinin professional dəstəyindən yararlanmışam".

Gülnur hələ ki, hansı universitetdə oxuyacağına qərar verməyib. Özünün dediyinə görə, dünyanın daha bir neçə universitetinə müraciət etdiyini və bununla bağlı cavab gözlədiyini, seçimini isə sonda yekun siyahıdan edəcəyini bildirir: "Politologiya-siyasi elmlər üzrə ali təhsil almaq istəyirəm. Kiçik yaşlarımdan dövlət idarəçiliyinə və diplomatiyaya marağım var. Xatırlayıram ki, hələ 5-6 yaşlarımda televiziya kanallarında yerli və beynəlxalq siyasi tədbirləri böyük həvəslə və diqqətlə izləyərdim. Düşünürəm ki, müxtəlif millətlərin mədəniyyətlərinin qovuşduğu ABŞ-də diplomatiya üzrə təhsil almağım daha çox biliklər əldə etməyimə, özümü daha geniş miqyasda tanıtmağa, gələcəkdə siyasi elmlər üzrə elmi fəaliyyətlə məşğul olmağıma geniş imkanlar yaradacaq".

**Samirə KƏRİMOVA**

# Növbəti tədris ilinə yeni kurikulumla

Məzmunun təqdimi daha da konkretləşdirilib, kurikulum sənədlərinin həcmi azalıb, strukturu yenilənib, qiymətləndirilməyə dair hissə tamamlanaraq, sənədə əlavə edilib.

2021-ci ildən etibarən Nazirlər Kabinetinin müvafiq qərarı və buna uyğun olaraq elm və təhsil nazirinin əmrinə əsasən ümumtəhsil müəssisələrində tədris olunan fənn kurikulumları yenilənir. İlkin olaraq proses təbiət fənləri və riyaziyyatdan başlanıb. Artıq bir neçə fənn üzrə kurikulumlar hazırdır və bu ilin fevral ayında elm və təhsil nazirinin əmri ilə təsdiq edilib.

Fənn kurikulumlarının yenilənməsi prosesinin təşkili, dəyişikliklərdə nəzərə alınan əsas məqamlara diqqət çəkən Azərbaycan Respublikası Təhsil İnstitutunun (ARTİ) Təhsil standartları və proqramları şöbəsinin müdiri Mənsur Məhərrəmov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində təhsil ictimaiyyətini maraqlandıran yenilikləri şərh edib.

## Mənsur Məhərrəmov: "Kurikulum sənədi müəllimlərin həvəslə istifadə edəcəkləri, faydalanacaqları resursa çevriləcək"



### "Əsas hədəflərdən biri kurikulumun mənimsənilməsini asanlaşdırmaq oldu"

- *Kurikulumun təkmilləşdirilməsi prosesi necə gedir?*

- Hazırda təkmilləşdirilmiş 4 fənn kurikulumu elm və təhsil naziri Emin Əmrullayevin bu il fevralın 22-də imzaladığı əmr ilə təsdiq olunub. 2024-2025-ci tədris ilindən etibarən riyaziyyat I-V siniflərdə, kimya və biologiya VII sinifdə, təbiət V-VI siniflərdə, həyat bilgisi I-II siniflərdə tətbiq ediləcək.

- *Kurikulum niyə dəyişdi? Prosesin kökündə nə dayanır?*

- Zaman dəyişir, elm və texnologiya sürətlə inkişaf edir. Dərsliklər, müəllimlər, məktəblər bu prosesə hazır olmalıdır. Bu hazırlığı ilk növbədə təhsil proqramları və standartları təmin edir. 2013-cü ildən təsdiq edilən fənn kurikulumları üçün dəyişikliyin vaxtı idi. Yəni, bu təkmilləşdirmə 10 il sonra həyata keçirilir. Düşünürük ki, 10 il kifayət qədər uzun müddətdir dəyişiklik üçün və təhsil proqramlarının yenilənməsi bu qədər uzun çəkməməlidir. Cəmiyyətin buna hazır olmadığını, tətbiqinin hələ tez olduğunu düşündüyümüzdən bəzi dəyişiklikləri etmədik. Bunları növbəti mərhələdə həyata keçirməyi planlaşdırırıq.

- *Kurikulumda dəyişikliklər nəyə hesablanıb?*

- Təkmilləşdirmə prosesində əsas hədəflərdən biri, ümumiyyətlə, kurikulumun mənimsənilməsini asanlaşdırmaq oldu. "Kurikulum" sözünə qarşı cəmiyyətdə formalaşan mənfi rəyi dəyişməyə çalışdıq. Ona görə də ilk hədəf kurikulum istifadəçiləri oldu. Çalışdıq ki, kurikulumlar fənni tədris edən müəllim və dərslikləri hazırlayan müəlliflər üçün faydalı olsun. İkinci hədəf təhsil proqramlarının istifadəçiyönümlü olması idi və bu məqsədlə həcmin ciddi şəkildə optimallaşdırılmasına gedilib.

- *Bəs, optimallaşdırma kurikulumu daha anlaşılmaz etməzmi?*

- Ümumi yazılan cümlələr vardı, biz onları ixtisar etdik, məzmunu konkretləşdirdik. Təhsil cəmiyyətinin, xüsusən müəllimlərin aşina olduğu məqamlar vardı ki, hesab etdik ki, onları ixtisar etsək də olar. Anlaşılmaz olmasın deyə sənədin strukturu sadələşdirilib.

100-dən artıq səhifəsi olan proqramlar 55 səhifəyə düşüb. Lakin ümumi səhifələrin sayı azalsa da, məzmuna ayrılan hissə artıb. Əsas həcmi standartların düzgün anlaşılmasına ayırdıq. Bu da yuxarıda qeyd etdiyimiz anlaşılırlığı artırmaq məqsədi ilə edilib, yəni faydalı artımdır. Belə ki, bu hissədə həcm artsa da, məzmun yumşalıb, xüsusən, alt standartlar aydınlaşıb. Bəzi siniflərdə bəzi məzmun xətləri üzrə standartlar artıq yoxdur. Məsələn, müəllimlər üçün xüsusilə maraqlı olacaq bir nümunə deyim. Riyaziyyatın tədrisi ibtidai təhsil səviyyəsində 5 məzmun xətti ilə başlayır. Ümumi orta təhsil səviyyəsində məzmun xətti 4-ə enir. Burada ölçmə məzmun xəttinə aid standart artıq yoxdur. Halbuki 10 il əvvəl vardı. Qoyulan qayda bu idi ki, məzmun xətti kəsilə bilməz, hər sinif üzrə bu, davam etməlidir. Bu da sünilik yaradırdı, biz süniliyi ortadan qaldırdıq.

### "Yeni sənəd fəaliyyət üzərində öyrənmək üçün şagirdə imkan yaradır"

- *Sünilik nələrdə müşahidə olunurdu, nümunə verə bilərsiniz?*

- Məsələn, ölçü məzmun xəttində standart tapmadığımızdan həndəsədən, yaxud cəbr məzmun xəttindən standartları ora transfer etmişdik. Nəticədə qeyri-müəyyən standartlar yaranmışdı. Standartı olmayan məzmun xətləri üzrə dərslik hazırlayarkən müəlliflər məcbur olub oxşar standarta əsaslanırdı, nəticədə anlaşılmazlıq yaranır, müəllim də, müəllif də çətin vəziyyətdə qalırdı. Təkmilləşdirmədən sonra bəzi fənlərdə məzmun xətlərinin adları da dəyişib.

Bir sözlə, kurikulum təkmilləşdirmə komandalarımızın önəm verdiyi hissə məzmunla bağlıdır. Daha çox məzmunun yenilənməsinə, uyğunlaşdırılmasına əhəmiyyət verdik. İlk növbədə, ölkə ictimaiyyətinin ən çox şikayətləndiyi hissə - şagirdlərin yüklənməsi ilə bağlı narahatlıqlara son qoymağın yollarını tapmağa çalışdıq. Həqiqətən də, fənlərin məzmununda ciddi yüklənmə vardı. İlk işimiz o oldu ki, məzmunda ümumiləşdirmələr apardıq, ciddi ixtisarlar etdik və bu, özünü ayrı-ayrı fənlərdə fərqli göstərdi. Məsələn, riyaziyyatda triqonometrik bərabərsizliklərin tədrisini dayandırdıq. Həm üzvi, həm qeyri-üzvi kimyanın VII-IX siniflərdə tədrisində uşaqların çox çətinlik çəkdiyi ciddi reaksiyalar, tənliklərin 70 faizi tədrisdən çıxarıldı. Biologiyada əzbərçiliyə əsaslanan bir çox məqamlar - adlar, terminlər üzərində mümkün olan yüngülləşdirmələr apardıq. Bəzi anlayışlar tamamən çıxarılmasa da, qismən ixtisar olundu. Aktuallığını itirən, artıq elm və texnologiyada istifadə olunmayan mövzuları tədrisdən çıxartdıq. Onun yerinə günümüzün tələbinə uyğun mövzular saldıq. Məsələn, NANO texnologiyalardan, Marsa getməkdən danışırıqsa, dövrümüzün bu tələbləri müvafiq fənlərin məzmununda də öz əksini tapmalıdır, deyə düşündük. 10-20 il sonranın tələbini mümkün qədər nəzərə alaraq yenilik etməyə çalışdıq. Məsələn, XXI əsr bacarıqlarının şagirdlərdə formalaşması üçün nə edə biləcəyimizi araşdırdıq. Həm mövzu olaraq, həm bu bacarıqların formalaşması üçün edə biləcklərimizi nəzərdən keçirdik. Kurikulum sənədində indiyədək olmayan fəaliyyətlər tövsiyə olunub. STEAM-ın inteqrasiyası da nəzərə alınıb ki, əsas məqsədlərimizdən biri də bu idi. Bu da bir yenilikdir. Başqa bir yenilik isə odur ki, indiyədək müəllimlərə hər standartın reallaşdırılması üçün sinifdaxili fəaliyyət haqqında tövsiyə xarakterli məlumat verilmirdi. İndi müəllim üçün vacib olan hər şey kurikulum sənədində öz əksini tapıb. Məzmunla bağlı sənəddəki ən böyük yeniliklərdən biri məzmunun təqdimatındakı fərqliliklərdir. Təkmilləşdirilmiş kurikulumda məzmun konkretləşib, qeyri-müəyyənliklər tamamən aradan qalxıb. Bunun üçün alt-standartların izahı üçün sənədə sütunlar əlavə edilib. İkinci sütunda verilən məlumat fərqli anlaşılmanın qarşısını almağa xidmət edirsə, üçüncü sütunda alt-standartı reallaşdırmaq üçün müəllimə tövsiyə xarakterli fəaliyyətlər əksini tapıb. Yeni sənəd fəaliyyət üzərində öyrənmək üçün şagirdə imkan yaradır.

### "Məqsədimiz müəllimə kömək etməkdir"

- *Deməli, təkmilləşmiş kurikulum müəllimə kömək edəcək?*

- Söhbətimizin əvvəlində də dediyim kimi, məqsədimiz müəllimə kömək etməkdir. Məhz müəllimin kurikulumdan maksimum yararlanmasına nail olmaq üçün təkmilləşdirmə üzərində işləyən İşçi qrupun üzvlərini çətinə saldıq. Çalışdıq ki, fənlərə uyğun təlim üsulları seçilsin ki, müəllimlər üçün də effektiv olsun. Bununla həm də mövzuları hansı strategiya əsasında öyrədəcəyini seçməsi üçün müəllimə istiqamət verildi. Odur ki, sənədin həcmini təlim strategiyaları, təlim üsullar ilə artırmağa ehtiyac yox idi. Sadəcə proqramı qısa nümunələrlə dəstəklədik. İnteqrasiya cədvəlini proqramdan çıxartdıq. Hesab edirik ki, müəllimə bir cədvəldə riyaziyyatda hansısa teoremi fizikada hansı standartla inteqrasiya edəcəyinə dair göstəriş vermək əhəmiyyətsiz idi. Bu şəkildə müəllim inteqrasiyanı reallaşdırmırdı. Ona görə riyaziyyatda hansısa iki mövzunun, yaxud elə riyaziyyatın özünün fizika, biologiya, hətta sənaye ilə inteqrasiyasını tövsiyə etdik. Riyaziyyatın sənayedə tətbiqi də inteqrasiya sayılır. İnteqrasiyanı riyaziyyatda, biologiyada necə edə biləcəklərinə dair yol göstərdik. Eyni zamanda, fəndaxili inteqrasiyada da hansı məzmun xətləri arasında rahat inteqrasiya edə biləcəkləri barədə tövsiyələr verdik. Yəni, kurikulumda müəllimə inteqrasiya təmin etməyin yollarını verdik ki, bu da ən böyük yeniliklərimizdən biridir. Əslində, inteqrasiya dərs əsnasında olmalıdır. Bunun nə qədər uğurlu olması həm də müəllimin keyfiyyətlərindən asılıdır.

**2024-2025-ci tədris ilindən etibarən Riyaziyyat I-V siniflərdə, kimya və biologiya VII sinifdə, təbiət V-VI siniflərdə, həyat bilgisi I-II siniflərdə tətbiq ediləcək.**

**Ölkə ictimaiyyətinin ən çox şikayətləndiyi hissə - şagirdlərin yüklənməsi ilə bağlı narahatlıqlara son qoymağın yollarını tapmağa çalışdıq.**

**Aktuallığını itirən, artıq elm və texnologiyada istifadə olunmayan mövzuları tədrisdən çıxartdıq. Onun yerinə günümüzün tələbinə uyğun mövzular saldıq.**

**Kurikulum sənədində indiyədək olmayan fəaliyyətlər tövsiyə olunub. STEAM-ın inteqrasiyası da nəzərə alınıb ki, əsas məqsədlərimizdən biri də bu idi.**

**Çalışdıq ki, fənlərə uyğun təlim üsulları seçilsin ki, müəllimlər üçün də effektiv olsun. Mövzuları hansı strategiya əsasında öyrədəcəyini seçməsi üçün müəllimə istiqamət verildi.**

**Kurikulumda müəllimə inteqrasiya təmin etməyin yollarını verdik ki, bu da ən böyük yeniliklərimizdən biridir.**

**Kurikulum təkmilləşdirilərkən çalışdıq ki, fənnə aid alətlər və üsullardan istifadə edərək şagirdin bacarıqları ölçülsün.**

### "Çalışdıq ki, fənnə aid alətlər və üsullardan istifadə edərək şagirdin bacarıqları ölçülsün"

- *Kurikulumun strukturu necə dəyişib?*

- Kurikulum təkmilləşdirilərkən çalışdıq ki, fənnə aid alətlər və üsullardan istifadə edərək şagirdin bacarıqları ölçülsün. Çünki ədəbiyyatda bacarığın ölçülməsi bir, riyaziyyatda tamamilə fərqli ola bilər. Ona görə burada da qiymətləndirmə nöqteyi-nəzərindən müəyyən tövsiyələr verdik, müəllimə istifadə edə biləcəyi üsullar tövsiyə etdik. Qiymətləndirmə materialına və ya kağızına da bəzi fənlərdə əlavələrimiz oldu. Ümumi qiymətləndirmə konsepsiyası üzərində iş davam etsə də, o sənəd yekunlaşmadan kurikulum sənədinə qoyduğumuz qiymətləndirmə hazırlanacaq sənədlə ziddiyyət təşkil etməyəcək. Çünki həm konsepsiya üzərində hazırda davam edən çalışmalardan xəbərimiz var, həm də qiymətləndirmə üsullarını fənnə məxsus yazdığımıza görə hər hansı maneə olmayacaq. Bir də ki, müəllim özü dərsini hansı sinifdə necə quracağını hamıdan yaxşı bilir. Alət, üsul, strategiyalarını özü müəyyənləşdirir.

- *Belə aydın olur ki, təkmilləşdirilmiş kurikulum, sadəcə təhsil proqramı deyil, həm də müəllim üçün vəsait, ədəbiyyatdır?*

- Bəli, elə hesab edirik ki, kurikulum sənədi müəllim üçün bir ədəbiyyatdır. Sadəcə jurnal yazarkən nömrəsini götürəcəyi bir sənəd yox, onların həvəslə istifadə edəcəkləri, faydalanacaqları resursa çevriləcək.

### "Müəllimlərlə, ekspertlərlə, AMEA-nın institutları, universitetlərin kafedraları ilə müzakirələr apardıq"

- *"Kurikulum ləğv olunmalıdır", "yeni tədris standartı hazırlanmalıdır", - şəklində tez-tez fikirlər gündəmə gəlirdi. Hətta sənədin ölkənin təhsil qanunu ilə ziddiyyət təşkil etdiyini bildirənlər vardı. Sizcə, yeni sənəddə bu fikirlərin, iradların cavabı varmı?*

- Belə iradlar sonradan yaranmasın deyə ilk növbədə ümumtəhsil müəssisələrindəki müəllimlərlə, daha sonra Dövlət İmtahan Mərkəzinin ekspertləri, AMEA-nın müvafiq institutları, universitetlərin müvafiq kafedraları ilə müzakirələr apardıq, ayrı-ayrı fənlərin tədrisi ilə bağlı rəylər aldıq. Sənəd hazır olandan sonra təsdiqə vermədən bir ay müddətində ARTİ-nin rəsmi internet səhifəsində ictimai müzakirəyə qoyduq. Ordan gələn rəyləri də nəzərə aldıq. Hazırda 5 fənn kurikulumu üçün bu proses tamamlanaraq fevral ayında təsdiq olunub. Bütün kurikulumlarda bu prosesi davam etdirəcəyik. Bunlara baxmayaraq, müzakirələrdən xəbər tutmayanlar, etiraz, narazılıq, irad bildirənlər yenə olacaq və bu qəbul ediləndir. Sosial şəbəkələrdə elan edərək elmi yanaşması olanları müzakirələrə cəlb etməyə çalışdıq. Çox faydalı məsləhətlər də aldıq, klassikləşmiş mənfi rəylər də eşitdik. Bunlar bundan sonra da mütləq olacaq.

- *Bəs, müəllimlər nə fikirdədir? Əsas tətbiq edən, icraçı onlar olduğundan kurikulumla bağlı onların rəyini aldınız?*

- Qaralama hazır olanda müəllimləri canlı şəkildə dəvət edərək onlarla müzakirələr təşkil etdik, sosial şəbəkələr üzərindən saysız vebinarlar keçirdik, insanlara gördüyümüz işlər barədə məlumat verdik. Bakı məktəblərinin qabaqcıl müəllimlərinin, metodbirləşmələrin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin köməyilə seçilən fəal müəllimlərin iştirakı ilə toplanan auditoriyalardan maraqlı rəylər, təkliflər aldıq.

### "Təkmilləşdirmə prosesi çərçivəsində ölkələrin təcrübəsi, ənənəsini araşdırdıq"

- *İşçi qrup beynəlxalq təcrübəni də yəqin ki, nəzərdən keçirib?*

- Hər fənn üzrə 4-5 mütəxəssisdən ibarət işçi qrup proqramlar üzərində işləyib ingiliscə tərcümə edərək Sinqapur təhsil şirkətlərinin mütəxəssisləri ilə ilkin variantları məsləhətləşdilər. Ümumiyyətlə, qeyd edim ki, təkmilləşdirmə prosesi çərçivəsində ölkələrin təcrübəsi, ənənəsini araşdırdıq. Təhsildə qabaqcıl olan, qiymətləndirmə tədqiqatlarında ön sıralarda yer alan ölkələrin bir neçəsinin fənn kurikulumlarını tədqiq etdik. Hər fənn üzrə 5-6 belə ölkənin təhsil proqramlarını araşdırdıq, fənn kurikulumlarının təhlilini apardıq. PISA, TIMMS kimi beynəlxalq qiymətləndirmə tədqiqatlarının çərçivə sənədlərini nəzərdən keçirdik. Deyə bilərəm ki, təkmilləşdirmədə beynəlxalq təcrübə nəinki nəzərə alındı, mütəxəssisləri məsləhətçi qismində prosesə cəlb etdik. Məsələn, təbiət fənləri və riyaziyyat fənninin kurikulumunda Sinqapurun Marşal Kavendiş İnstitutu və Alston Nəşriyyat evinin mütəxəssisləri ilə işlədik. Coğrafiya fənn kurikulumunun təkmilləşdirilməsində Türkiyədən mütəxəssis cəlb etdik. İngilis dili kurikulumunun təkmilləşdirilməsində Kaliforniya Universitetindən mütəxəssis dəvət edilib. Proses gözlədiyimizdən uzun çəkdi, amma uğurlu oldu. Kurikulum təkmilləşmə mexanizminin bir müddəti var: təhlil, beynəlxalq proqrmlarla müqayisəli təhlil mərhələsi, ilkin variantların hazırlanması, maraqlı tərəflərlə müzakirələr, sonda isə təkmilləşdirmə və təsdiq. Bundan sonrakı mərhələdə maarifləndirmə tədbirləri, tətbiq və tətbiqin monitorinqi keçirilir. Monitorinqlərin nəticəsi də növbəti təkmiləşdirmə mərhələsində nəzərə alınır. Mexanizm bu şəkildə təkrarlanacaq.

**Ruhiyyə DAŞSALAHLI**

# 39 şagird 300 bal topladı


Əliyev İlkin


Əliyev Məhəmməd


Əlizadə Rəbiyyə


Əzimli Ayla


Həsənli Rəsul


Mirzəli Ülkər


Rüstəmli Fidan


Xasıyeva Jalə


Cəfərova Nərmin


Əzizova Həqiqət


Əhmədova Nəzrin


Hüseynova Nuray


Rüstəmzadə Sona


Səfərova Leyla


Məhərrəmzadə İlahə


Əbilov Ziya


İsmayıllı Kənan


Hüseynzadə Hafizə


Nağıyeva Leyla


Yusifova Səbinə


İsgəndərli Həcər


Ələsgərov Amil


Nuruyev Elgün


Məmmədov Fərid


Hüseynli Aytac


Gərayzadə Kənan


Abdullayeva Türkan


Rzayeva Ceyran


Əsədullayev Amin


Əlizadə Sevinc


Gülməliyeva Sevil


Həsənzadə Ayla


Çələbi Nurlanə


Məmmədsoy Həmidə


Quliyeva Leyla


Hacızadə Nihad


Hacılı Lamiyyə


Harunova Humay


Nəzirova Ayşən

# MAKSİMUM NƏTİCƏ GÖSTƏRƏN KƏND MƏKTƏBLİLƏRİ

Əvvəli səh. 1

### “Əslində yüksək nəticə olacağını da gözləyirdim”

*Leyla Səfərova, Saatlı rayonu Ə.Şükuroğlu adına Varxankənd kənd tam orta məktəbin şagirdi:* - “Müəllimlərimə minnətdarlığımı bildirirəm. Həm müəllimlərim, həm də məktəbin rəhbərliyi mənə həmişə dəstək olub. İmtahanda uğur qazanmağım üçün həmişə sistemli olaraq çalışmışam. Çalışırdım ki, vaxtımı düzgün bölüm, imtahana qədər mövzuları oxuyub bitirim. İmtahan nəticələri çıxanda çox həyəcanlı idim. Bu nəticə mənim üçün çox gözəl oldu. Əslində yüksək nəticə olacağını da gözləyirdim. Bu uğurlarımın qazanılmasında ən böyük dəstək göstərənlərdən biri də babam olub. Babam məndə uşaq yaşlarımdan öyrənməyə həvəs yaradıb. Arzum hüquqşünas olmaqdır.

Bakalavr təhsilimi ADA Universitetində, magistr təhsilimi isə xaricdə almağı planlaşdırıram. Təhsilə xüsusi diqqət yetirirəm. Düşünürəm ki, yalnız yüksək təhsil almaqla həyatda uğur qazanmaq olar. Fənn olimpiadalarında da həmişə aktiv iştirak etmişəm. 2021-2022-ci tədris ilində keçirilən fənn olimpiadalarında tarix fənni üzrə birinci yeri tutaraq qızıl medal əldə etmişəm. Eyni nəticəni 2022-2023-cü tədris ilində də təkrarlayaraq Respublika fənn olimpiadasında Azərbaycan dili və ədəbiyyat fənnindən qızıl medal əldə etmişəm”.

### “Valideynlərimin əziyyətini itirmədiyim üçün qürur duyuram”

Buraxılış imtahanında 300 bal toplayan şagirdlərdən biri də Masallı rayonu Şərəfə kənd tam orta məktəbin XI sinif şagirdi Rzayeva Ceyran Anar qızıdır. 9 illik təhsilini Masallı rayon Yavər Ağayev adına Bala Təklə kənd natamam orta məktəbində alıb.

Bütün fənləri sevdiyini qeyd edən Ceyran riyaziyyat, ingilis dili, tarix, Azərbaycan dili fənlərinə xüsusi maraq göstərdiyini bildirir. Kitab oxumağı, musiqi dinləməyi çox sevir. Yüksək bal toplamağında məktəbdə aldığı yüksək keyfiyyətli tədrisin, yaradılan şəraitin, müəllimlərin həvəsləndirici söhbətlərinin böyük rol oynadığını qeyd edir.

C.Rzayeva Masallı rayonunda təşkil olunan sınaq imtahanlarında mütəmadi olaraq birincilik əldə edib. Uğurlu gəncin arzusu Bakı Dövlət Universitetində “Hüquqşünaslıq” ixtisası üzrə təhsil almaqdır. Buraxılış imtahanında maksimum bal toplamağının sevincini belə ifadə edir: “Çox sevindim, valideynlərimin, müəllimlərimin əziyyətini itirmədiyim üçün qürur duyuram. Valideynlərim uşaqlıqdan hər seçimimdə mənə dəstək olublar. Bu da məni daha da ruhlandırırdı. Məncə, şagirdlər uğur əldə etmək üçün əzmkar, məsuliyyətli, yenilikçi və çalışqan olmalıdırlar. Gələcəkdə də qarşıma qoyduğum bütün məqsədlərə çatmaq uğrunda əlimdən gələni edəcəyəm”.

### “Hədəfi növbəti mərhələdə də ən yüksək balı toplamaqdır”

Biləsuvar rayon Xırmandalı kənd Ceyhun Məhərrəmov adına 1 nömrəli tam orta məktəbin şagirdi Hacılı Lamiyyə Firdovsi qızı da 300 balın sevincini və qürurunu yaşayır. Təhsil aldığı məktəbin ən uğurlu şagirdlərindən biridir. Daim öz üzərində çalışmaqla, qazandığı nailiyyətləri ilə müəllim və valideynlərini sevindirib. Lamiyyə buraxılış imtahanlarına böyük məsuliyyətlə hazırlaşıb. Bütün fənlərə maraq göstərib. Buraxılış imtahanında qazandığı uğur onun üçün böyük stimuldur. Hədəfi növbəti mərhələdə də ən yüksək balı toplamaqdır.

### Məsuliyyət və zəhmətin bəhrəsi

Buraxılış imtahanında yüksək uğur qazanan şagirdlərdən biri də Ağstafa rayonu, Həsənsu kənd tam orta məktəbin XI sinif şagirdi Həcər Emil qızı İsgəndərlidir.

Cari tədris ilində ölkəmizdə ümumtəhsil məktəblərinin şagirdlərinin ali məktəblərə qəbulunda yüksək göstəriciləri sevindirici haldır. Bu, şagirdlərimizin ali məktəblərə hazırlıqda yüksək fəallıq göstərmələri, seçimlərini daha düzgün etməsi, məsuliyyətli olmalarının nəticəsidir. Builki uğurlu şagirdlərimizdən biri olaraq Həcər də buraxılış imtahanlarına məsuliyyətlə yanaşıb, öz üzərində daim çalışıb. Nəticə isə göz qabağındadır.

Uğur qazanan bütün şagirdlərimizi, onların valideynlərini, müəllimlərini təbrik edirik, şagirdlərimizə növbəti imtahanda uğurlar arzulayırıq.

**“Azərbaycan müəllimi”**

# Şagirdlərin regionlar üzrə bölgüsü

Əvvəli səh. 1

**Sumqayıt şəhərindən öz nəticələri ilə fərqlənən 6 nəfər Abşeron-Xızı Regional Təhsil İdarəsini fərqləndirib.**

*Ələsgərov Amil Tofiq oğlu* (Sumqayıt şəhəri, 1 nömrəli tam orta məktəb);
*Məmmədov Fərid Ruslan oğlu* (Sumqayıt şəhəri, Təbiət elmləri təmayüllü gimnaziya);
*Hüseynli Aytac Vüqar qızı* (Sumqayıt şəhəri, Təbiət elmləri təmayüllü gimnaziya);
*Garayzadə Kənan Rafiq qızı* (Sumqayıt şəhəri, “İstedad” liseyi (humanitar və təbiət riyaziyyat təmayüllü));
*Nuruyev Elgün Akif oğlu* (Sumqayıt şəhəri, Təbiət elmləri təmayüllü gimnaziya);
*Abdullayeva Türkan Ceyhun qızı* (Sumqayıt şəhəri, 16 nömrəli tam orta məktəb).

**3 Gəncə məktəblisi topladığı balla Gəncə-Daşkəsən Regional Təhsil İdarəsini önə çıxarıb.**

*Əzizova Həqiqət Anar qızı* (Gəncə şəhəri, 27 saylı Riyaziyyat-informatika təmayüllü lisey);
*Hüseynova Nuray Emin qızı* (Gəncə şəhəri, 39 nömrəli şəhər tam orta məktəb);
*Əhmədova Nəzrin Ramil qızı* (Gəncə şəhəri, 30 nömrəli şəhər tam orta məktəb).

**Qarabağ Regional Təhsil İdarəsinə tabe olan Füzuli rayonundan bir məktəbli fərqlənib. Şərqi-Zəngəzur Regional Təhsil İdarəsindən də bir şagird maksimum nəticə göstərib.**

*Əlizadə Sevinc Fuad qızı* (Füzuli rayonu, 33 nömrəli tam orta məktəb);
*Rüstəmzadə Sona Səfər qızı* (Kəlbəcər rayonu, 37 nömrəli tam orta məktəb).

**Qazax-Tovuz Regional Təhsil İdarəsi üzrə fərqlənən 3 məktəbli ayrı-ayrı rayonlarda yaşayır. Onlar Ağstafa, Qazax və Tovuz məktəbliləridir.**

*Məhərrəmzadə İlahə Rəşad qızı* (Tovuz rayonu, M.Ələkbərov adına şəhər tam orta məktəb);
*İsgəndərli Həcər Emil qızı* (Ağstafa rayonu, Həsənsu kənd tam orta məktəb);
*Yusifova Səbinə Vüqar qızı* (Qazax rayonu, Dəmirçilər kənd tam orta məktəb).

**1 Quba məktəblisi Quba-Xaçmaz Regional Təhsil İdarəsini fərqləndirib.**

*Gülməliyeva Sevil Rövşən qızı* (Quba rayonu, Aşağı Atuc kənd tam orta məktəb).

**Lənkəran-Astara Regional Təhsil İdarəsi Masallı rayonundan olan 2 məktəblisi ilə öyünür.**

*Rzayeva Ceyran Anar qızı* (Masallı rayonu, Şərəfə kənd tam orta məktəb);
*Əsədullayev Amin Arif oğlu* (Masallı rayonu, 3 nömrəli şəhər tam orta məktəb).

**Şəki-Zaqatala Regional Təhsil İdarəsi üzrə 2 Qax məktəblisi, Mil-Muğan Regional Təhsil İdarəsi və Şirvan-Salyan Təhsil İdarəsi üzrə 1 məktəbli fərqlənib.**

*Harunova Humay Abdurahman qızı* (Qax rayonu, 4 nömrəli şəhər tam orta məktəb);
*Nəzirova Ayşən Fikrət qızı* (Qax rayonu, 4 nömrəli şəhər tam orta məktəb);
*Səfərova Leyla Abuzər qızı* (Saatlı rayonu, Varxankənd kənd tam orta məktəb);
*Hacılı Lamiyyə Firdovsi qızı* (Biləsuvar rayonu, Xırmandalı kənd 1 nömrəli tam orta məktəb).

**Naxçıvan Muxtar Respublikasından 4 məktəbli ən yüksək nəticə göstərib.**

*Hüseynzadə Hafizə Canpolad qızı* (Naxçıvan şəhəri, 1 nömrəli tam orta məktəb);
*Nağıyeva Leyla Arif qızı* (Naxçıvan şəhəri, 12 nömrəli tam orta məktəb);
*Əbilov Ziya Namiq oğlu* (Naxçıvan MR Şərur rayonu, Fizika-riyaziyyat təmayüllü lisey);
*İsmayıllı Kənan Mehman oğlu* (Naxçıvan MR Culfa rayonu, 3 nömrəli şəhər tam orta məktəb).

**Ruhiyyə DAŞSALAHLI**

# SEVGİ, İNAM OLARSA...

*Gənc müəllim Özal Muradov:*

## "Fiziki məhdudiyyət heç vaxt inkişafa, uğura mane ola bilməz"

"Azərbaycan müəllimi"nin budəfəki qonağı oxumaq və inkişaf etməkdə məhdudiyyət tanımayan Özal Arif oğlu Muradovdur. Gənc müəllimi yaxından tanıyaq. 1994-cü il sentyabrın 23-də Bakı şəhərində anadan olub. 4 yaşında keçirdiyi suçiçəyi xəstəliyindən görmə qabiliyyətini tam itirib. Amma bu, onu heç vaxt ruhdan salmayıb. İlk təhsilini 2001-2013-cü illərdə 5 nömrəli Respublika xüsusi internat məktəbində alıb. 2013-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) "Tarix müəllimi" ixtisasına qəbul olub, 2017-ci ildə bakalavr pilləsini bitirib. 2017-2019-cu illərdə Sumqayıt Dövlət Universitetində "Avropa və Amerika ölkələrinin yeni və ən yeni dövrlərinin tarixi" ixtisası üzrə magistratura təhsili alıb və bu ali təhsil ocağının fərqlənmə diplomuna layiq görülüb.



**MİQ-də maksimum bal, şagirdlərinin sevimli müəllimi**

Özal Muradov 2019-2022-ci illərdə Lerik rayonu Zenoni kənd ümumi orta məktəbində tarix müəllimi kimi çalışıb. 2022-ci ildə müəllimlərin işə qəbulu imtahanında yüksək nəticə göstərərək 97,5 bal toplayıb. Elm və Təhsil Nazirliyinin qərarı ilə ucqar kəndlərdə minimum 3 il işləyən müəllimlərin balı əmsal artımı ilə hesablandığına görə Özal Muradov da bu imkandan yararlanıb. Hazırda Bakı şəhəri 45 nömrəli tam orta məktəbdə çalışır, şagirdlərinin sevimli tarix müəlliminə çevrilib. Müəllimlərin işə qəbulu imtahanı ərəfəsində həyat yoldaşı ona çox böyük dəstək olub.

**Səsli kitablar işini asanlaşdırdı**

Bilikləri uşaqlıqda maqnitofon vasitəsilə disklərdə və kasetlərdə səsli kitablara qulaq asaraq topladığını deyir Özal müəllim. Bu disk və kasetlər 1981-ci ildə yaradılan Gözdən Əlillər üçün Respublika kitabxanasında müəyyən diktorlar tərəfindən səsləndirilən səsli kitablardır. Universitet illərində qrup yoldaşları ona dərsləri oxuyur və bəzən telefon vasitəsilə də dərsləri danışırmışlar. Mobil telefonlarda səsli proqramlar yaradıldıqdan sonra telefonun ekranında yazılan bütün yazıları dinləyir və sosial mediadan da istifadə edə bilir.

**"Düşüncə əngəlləri aşır"**

Həyatındakı ən böyük dəstəkçiləri ailəsinin olduğunu deyir: "Hər bir insanın fərqli öyrənmə metodları var. Məncə öyrənmənin ən gözəl yolu oxuduğun fənni, ixtisası sevməkdir. Sevgi, inam işin yarısı deməkdir.

Düşünürəm ki, Azərbaycanın təhsil ictimaiyyətinə, şagirdlərimə və cəmiyyətə yararlı bir insan olmaq mənim üçün ən böyük uğur və vacib vəzifədir. Ən böyük istəyim şagirdlərimin və məni bu cəmiyyətdə tanıyan insanların yaddaşında hər zaman yararlı bir insan kimi qalmaqdır.

Xüsusilə fiziki məhdudiyyətli övladları olan valideynlərə səslənirəm, bəzən övladlarını gizlədirlər, sanki onlardan utanırlar. Qətiyyən bunu etməyin. Çünki mənim timsalımda və başqa bir sıra şəxslər də var ki, gözəl şeirlər yazırlar, gözəl rəsmlər çəkirlər, yaxşı ifalar edirlər və yaxud mənim kimi müəllimlər məktəblərdə dərs deyirlər. Hətta ADA Universitetində belə gözdən əlil dərs deyən müəllim var. Bunları deməkdə məqsədim odur ki, düşüncə əngəlləri aşır. Fiziki məhdudiyyət heç vaxt inkişafa, uğura mane ola bilməz. Əsas odur ki, bizim düşüncəmizdə əngəl olmasın".

**Şölə RƏŞİDQIZI**

---

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Naxçıvan Dövlət Universiteti

### 2024-2025-ci tədris ili üçün fəlsəfə və elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul və dissertanturaya təhkim olunma üçün sənəd qəbulu

**ELAN EDİR:**

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla o cümlədən | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla o cümlədən | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** |
| | | | əyani | qiyabi | | | əyani | qiyabi | |
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 | | | | | |
| 2303.01 | Qeyri-üzvi kimya | 1 | | 1 | | | | | |
| 2306.01 | Üzvi kimya | 1 | | 1 | | | | | |
| 2417.01 | Botanika | 1 | | 1 | | | | | |
| 3220.01 | Pediatriya | 1 | | 1 | | | | | |
| 3226.01 | Stomatologiya | 1 | | 1 | | | | | |
| 3338.01 | Sistemli analiz və idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə) | | | | 1 | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | | | | 1 | | | | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 1 | 1 | | | | | | |
| 5312.01 | Sahə iqtisadiyyatı | | | | 1 | | | | |
| 5310.01 | Dünya iqtisadiyyatı | 1 | 1 | | | | | | |
| 5503.02 | Vətən tarixi | 1 | | 1 | | 1 | | 1 | |
| 5706.01 | Azərbaycan dili | 1 | 1 | | | | | | |
| 5708.01 | German dilləri | 1 | 1 | | | | | | |
| 5709.01 | Roman dilləri | 1 | | 1 | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | | | | | |
| 5720.01 | Jurnalistika | 1 | | 1 | | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası | 1 | 1 | | | | | | |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 1 | | 1 | | | | | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | | 1 | | | | | |
| 6213.01 | Musiqi sənəti | 1 | | 1 | | | | | |
| 6215.01 | Təsviri sənət | 1 | | 1 | | | | | |
| | **Cəmi:** | **19** | **5** | **14** | **3** | **1** | | **1** | |

Doktoranturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçirilir. (*Portal.edu.az* vasitəsilə 16.04.2024-15.05.2024-cü il tarixlərində müraciətlər qəbul olunacaq). Doktoranturaya qəbul olunmaq istəyən şəxs sənədlərini portala yükləməlidir.

**Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

* ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
* kadrların şəxsi-qeydiyyat vərəqi;
* tərcümeyi-hal;
* 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
* şəxsiyyəti təsdiq edən sənədin surəti;
* iş yerindən xasiyyətnamə;
* iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
* çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
* ali təhsil müəssisəsini bitirmək haqqında diplomların müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə, təhsilin magistratura pilləsini və yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis) tamamlanmadığı halda təhsil pilləsinin son ilində təhsil alındığına dair arayış (yalnız ölkə universitetlərində təhsilalanlar üçün);
* fəlsəfə doktoru (elmlər namizədi) diplomunun notarial qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üzrə sənəd verənlər üçün).

*Əlavə məlumat üçün həftə içi 09:00-18:00 saatları arasında əlaqə saxlaya bilərsiniz: (036) 544-08-61, daxili nömrə 3302*

**REKTORLUQ**

---

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Mikrobiologiya İnstitutu

### 2024-cü il üçün elmlər və fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul

**ELAN EDİR:**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Mikrobiologiya İnstitutu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 mart 2024-cü il tarixli 163s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2024-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları"na əsasən aşağıdakı ixtisas üzrə qəbul elan edir:

| Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura | Elmlər doktoru hazırlığı üzrə doktorantura |
|---|---|
| 2414.01 – Mikrobiologiya – 1 yer (əyani, büdcə hesabına)<br>2430.01 – Mikologiya – 1 yer (əyani, büdcə hesabına) | 2414.01 – Mikrobiologiya – 1 yer (qiyabi, ödənişli əsaslarla)<br>2430.01 – Mikologiya – 1 yer (qiyabi, büdcə hesabına) |
| **Fəlsəfə doktoru hazırlığı üzrə dissertantura** | **Elmlər doktoru hazırlığı üzrə dissertantura** |
| 2414.01 – Mikrobiologiya – 1 yer (büdcə hesabına) | 2414.01 – Mikrobiologiya – 1 yer (büdcə hesabına)<br>2430.01 – Mikologiya – 1yer (ödənişli əsaslarla) |

Doktoranturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin *portal.edu.az* saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Müraciətlər **portal.edu.az** vasitəsilə **16 aprel - 15 may 2024-cü il** tarixlərinədək qəbul ediləcək.

Doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 iyul 2010-cu il tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na (3.6; 3.7; 3.8 və 3.9 bəndlər) əsasən həyata keçirilir.

**Fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul** üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

* elmi müəssisənin rəhbərinin adına ərizə;
* kadrların şəxsi-qeydiyyat vərəqi;
* tərcümeyi-hal;
* 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
* iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
* iş yerindən xasiyyətnamə;
* çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
* ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
* xarici dil bilikləri üzrə beynəlxalq sertifikatı olanlara (IELTS, TOEFL, TestDaf, DALF əgər varsa) və ya xarici dildən keçid balını toplayanlara Dövlət İmtahan Mərkəzi tərəfindən verilən təsdiqedici sənəd;
* şəxsiyyəti təsdiq edən sənədin surəti.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən şəxslər xarici dildən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən xarici dil imtahanından keçid balını toplamalıdırlar. Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaf, DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin ekvivalentliyi Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyənləşdirilir.

Xarici dil imtahanını müvəffəqiyyətlə verən şəxslər sentyabr ayında keçirilən **Fəlsəfə (4, 5, 6 sentyabr 2024-cü il tarixlərində)** və ixtisas **(9, 10, 11 sentyabr 2024-cü il tarixlərində)** fənlərindən imtahana buraxılırlar. Xarici dil imtahanının keçirilməsi üçün siyahılar Elm və Təhsil Nazirliyi tərəfindən Dövlət İmtahan Mərkəzinə göndəriləcəkdir. **Xarici dil imtahanının 09.06.2024-cü il tarixində** keçirilməsi nəzərdə tutulub. Xarici dil imtahanının nəticələri Elm və Təhsil Nazirliyi tərəfindən portala yüklənilir.

**Elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:**

* ərizə (doktoranturanın fəaliyyət göstərdiyi və dissertantura təhsilini həyata keçirən müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
* kadrların şəxsi-qeydiyyat vərəqi;
* tərcümeyi-hal;
* 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
* iş yerindən xasiyyətnamə;
* əmək kitabçasından çıxarış;
* çap olunmuş elmi işlərin siyahısı;
* fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;
* ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
* şəxsiyyəti təsdiq edən sənədin surəti.

**DİREKTORLUQ**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Təhsil İnstitutu

ARTİ 2024-cü il üçün fəlsəfə və elmlər doktoru proqramları üzrə dissertanturaya və doktoranturaya qəbul

## ELAN EDİR:

Azərbaycan Respublikasının Təhsil İnstitutu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 mart 2024-cü il tarixli 163 s nömrəli sərəncamı ilə təsdiq olunmuş plan əsasında 2024-cü il üçün fəlsəfə və elmlər doktoru proqramları üzrə dissertanturaya və doktoranturaya (əyani və qiyabi) qəbul elan edir.

Fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturaya sənəd qəbulunun 16 aprel - 15 may 2024-cü il tarixlərində həyata keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, qeydiyyatı təsdiqlənən şəxslərin “Xarici dil” imtahanı Dövlət İmtahan Mərkəzi tərəfindən 9 iyun 2024-cü il tarixində keçiriləcək.

Xarici dil imtahanını müvəffəqiyyətlə verən şəxslərin fəlsəfə fənni üzrə imtahanı 2,3,4 sentyabr, ixtisas imtahanı isə 9,10,11 sentyabr 2024-cü il tarixlərində baş tutacaq.

Əlavə olaraq bildiririk ki, doktoranturaya sənəd qəbulunun “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçirilməsi planlaşdırılır.

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər




Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin *portal.edu.az* saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrinə tələbə qəbulu və qeydiyyatı” xidmətini seçərək təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

*Ətraflı məlumat üçün: +99412 493-82-71, +99412 599-08-08 daxili (6209), (6236), (6212)*

**DİREKTORLUQ**

---

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıda adıçəkilən kafedrada vakant vəzifəni tutmaq üçün müsabiqə

## ELAN EDİR:

| № | Kafedra | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | Turizm və kitabxana-informasiya fəaliyyəti | Baş müəllim | 1 |

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39

**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**

---

“AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan nəşriyyatı” MMC, 9-cu mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 534 **Sifariş** 888

**Məsul növbətçi:** O.Mustafayev

---



# Etibarsız sayılır



**Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən** 2018-ci ildə Quluzadə Vahib Elçin oğluna verilmiş A-151773 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci** tərəfindən 2018-ci ildə Abasova Fidan Zakir qızına verilmiş AA-106684 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Avrasiya Universiteti** tərəfindən 2019-cu ildə Əsədov Kamran Afər oğluna verilmiş C-041689 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2002-ci ildə Mirsalamov Mirsalam Ağasəlim oğluna verilmiş AB-II-079337 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1985-ci ildə Eyvazov Tapdıq Aslan oğluna verilmiş ЛВ-020682 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Borsunlu kənd 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Nağıyeva Müşərrəf Mehman qızına verilmiş B-419646 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1993-cü ildə Yusifova (Mahmudova) Şəlalə Şərbətəli qızına verilmiş ЦВ-841287 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 223 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əhmədova (Niftəliyeva) Gülşən Adəm qızına verilmiş B-496910 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Üçoğlan kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədov Elnur Əli oğluna verilmiş B-063055 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Üçoğlan kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Quliyeva Zülfiyyə Teymur qızına verilmiş B-748858 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 144 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Əli-zadə Səriyə Cümşüd qızına verilmiş A-192507 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 135 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Nigar Ceyhun qızına (Nəbiyeva) verilmiş E-018942 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Əziz Əliyev adına Sumqayıt Tibb Kolleci** tərəfindən 2006-cı ildə Seyidova İlahə Ağagül qızına verilmiş BB-II-040184 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Quluzadə Aysel Babək qızına verilmiş A-937295 nömrəli ümumi orta təhsil haqqında attestat, 2012-ci ildə verilmiş A-163125 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Qarabaqqal kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Abdullayeva Nigar Zahid qızına verilmiş A-527932 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Humanitar Kollec** (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində Humanitar Kollec) tərəfindən 2016-cı ildə Quliyeva Sima Sabir qızına verilmiş AA-076549 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 258 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Qələmli Emil Pərviz oğluna verilmiş E-148227 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Mustafayeva Mətanət Nurəddin qızına verilmiş A-052586 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə (attestat) itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 1 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Cavadlı Emil Fizuli oğluna verilmiş A-055069 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 298 nömrəli tam orta məktəbin VIII sinfini 1982-ci ildə bitirmiş Mərdanova (Məmmədova) Sevil Ağahüseyn qızına verilmiş 026829 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul şəhər** 5 nömrəli tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Rüstəmov Etibar Canbaxış oğluna verilmiş 120631 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2005-ci ildə Şıxıyev Cavid Şahvələd oğluna verilmiş B-050275 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Rinə kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Miriyev Ruzbeh Surxay oğluna verilmiş B-704860 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 39 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Hacıyev Ağasəf Cavid oğluna verilmiş A-292282 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 17 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Abışova Tünzalə Mehman qızına verilmiş A-697134 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 6 nömrəli məktəb-liseyin IX sinfini 2023-cü ildə bitirmiş Məmmədzadə Zemfira Ramil qızına verilmiş C-770295 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 226 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Əliyev Vüqar Əli oğluna verilmiş A-006395 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 179 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Cənnətov Emil Vasif oğluna verilmiş A-314311 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2010-cu ildə Həsənova Aida Adil qızına verilmiş B-192359 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**29 nömrəli Texniki Peşə Məktəbi** tərəfindən 1985-ci ildə Kopeykina Vera İvanovnaya verilmiş Д-475472 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şahbuz rayon** Keçili kənd tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Bayramova (Məhərrəmova) Zərçiçək Məhərrəm qızına verilmiş A-175873 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 148 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Tağıyev Tural Nəvail oğluna verilmiş A-493348 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 247 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Akkubayev Renan Elnur oğluna verilmiş E-579636 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Mahmudlu Lalə Şaik qızına verilmiş A-009094 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 17 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Əsgərova (Mahmudova) Samirə Adil qızına verilmiş 0533 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Veyisli kənd tam orta məktəbi 2021-ci ildə bitirmiş Səfərəliyev İbrahim İrfan oğluna verilmiş E-409968 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Qaravəlli kənd tam orta məktəbi 2023-cü ildə bitirmiş Nəhmədli Rəvan Mösüm oğluna verilmiş E-218352 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Piral kənd tam orta məktəbi 1990-cı ildə bitirmiş Xaspoladov Yalçın Pirmuradoviçə verilmiş 037571 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Urva kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Adıgözəlova Larisə Rodik qızına verilmiş B-418083 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 1 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Eyubov Arif Hacıbala oğluna verilmiş A-029480 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 16 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Ələkbərova Gülnar Ramiz qızına verilmiş A-499754 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 1 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş İbrahimov Ramil Həsən oğluna verilmiş A-191728 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Musayev Şamil Nəcməddin oğluna verilmiş A-245201 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Yolqullar kənd tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Atakişiyeva Könül Nəcəf qızına verilmiş A-275159 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naftalan şəhər** İ.Nəsimi adına tam orta məktəbi 2003-cü ildə bitirmiş Alıyeva (Cavadova) Tünzalə Tofiq qızına verilmiş A-741243 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Qudula kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Salmanzadə Aqil Adil oğluna verilmiş A-239638 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** I Şahsevən kənd 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Teymurova Lamiyə Famil qızına verilmiş B-524933 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qırmızı Əmək Bayrağı Ordenli Bakı Dövlət Universiteti** tərəfindən 1990-cı ildə Bəhramova Fəridə Tofiq qızına verilmiş УВ-I-119205 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına hərbi liseyi** 2012-ci ildə bitirmiş Əsgərli Nahid İlham oğluna verilmiş A-120594 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 33 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Məhəmmədi Ruhiyyə Əli qızına verilmiş A-522344 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 29 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Qüdrətova İlhamə Mirzə qızına verilmiş A-018410 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Məmmədli kənd tam orta məktəbi 2023-cü ildə bitirmiş Ağayev Amil Zaur oğluna verilmiş E-623227 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 169 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Qasımov Fikrət Valeh oğluna verilmiş A-193587 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı Peşə Liseyi** tərəfindən 2018-ci ildə Quliyev Cəmil Aydın oğluna verilmiş A-101887 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Səmədabad kənd tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Xudaquluyeva (Cəfərova) Pərvanə Çingiz qızına verilmiş AZ-000353 ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 272 nömrəli tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Hacıyeva Ülviyyə Vaqif qızına verilmiş B-206463 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə İbrahimova Aysel Azad qızına verilmiş A-089767 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 6 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Məmmədova (Tağıyeva) Cəmilə Zakir qızına verilmiş A-294302 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Abdullazadə Nicat Şahin oğluna verilmiş A-069234 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2015-ci ildə Camalov Sabir Habil oğluna verilmiş A-062555 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Çəmənli kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Aslanov Heydər Elman oğluna verilmiş B-148223 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi** (keçmiş Dövlət Dəmir yolu liseyi) tərəfindən 2004-cü ildə Nəsibov Fərid Kamal oğluna verilmiş B-118042 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Bala Bəhmənli kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Abdullayeva Könül Zəfər qızına verilmiş 469519 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 89 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Mehtiyev Elmin Zakir oğluna verilmiş B-601394 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Nəbiyev Üzeyir Etimadi oğluna verilmiş A-055147 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 3 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Qocayev Emin Anar oğluna verilmiş E-313807 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Quliyeva Sevinc Ramazan qızına verilmiş E-152679 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 181 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Fətullazadə Şamil Allahbağış oğluna verilmiş B-599800 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 19 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Məmişzadə Turan Bahadur oğluna verilmiş A-399285 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti** tərəfindən 1995-ci ildə Ağalarov Səməddin Əlimət oğluna verilmiş AB-I-026818 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Şıxarx kənd 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Salmanova Şəfəq Nizami qızına verilmiş B-128494 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Qızılhacılı qəsəbə 1 nömrəli tam orta məktəbi 1979-cu ildə bitirmiş Xavəri (Məmmədova) Ulduz Cuma qızına verilmiş 890829 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Çaylı kənd 1 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Lahicova Gülnarə İsmayıl qızına verilmiş 0\10 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Dünyamalılar kənd 1 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Ağayeva (Həsənova) Hürü Nəsir qızına verilmiş A-707254 nömrəli əsas təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2018-ci ildə Arabova Aygül İlham qızına verilmiş C-016281 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** M.İsayev adına tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Həmidova Aysel Mahir qızına verilmiş 787562 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** M.İsayev adına tam orta məktəbi 2000-ci ildə bitirmiş Əliyeva Jalə Vəli qızına verilmiş 400354 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Orta Ləki kənd tam orta məktəbi 1986-cı ildə bitirmiş Nəbiyeva Dilşad Nəriman qızına verilmiş A-206667 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2013-cü ildə Yıldırım Burak Nurettin oğluna verilmiş A-013626 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Akif Qambayzadə adına 148 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Nəsibova Kəmalə Təyyar qızına verilmiş B-331783 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2007-ci ildə Qəhrəmanova Nərgiz Camal qızına verilmiş B-100065 nömrəli diplom və 2008-ci ildə verilmiş diploma əlavə itdiyi üçün etibarsız sayılır.

---

## ALLAH RƏHMƏT ELƏSİN!

ARTİ-nin yanında Tədris Resursları Mərkəzinin kollektivi Zaur İsayevə əzizi

**RİZVAN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

H.Əbdülhəlimov, Ə.Tahirzadə, Ə.Quliyev, T.Məlikov və İ.Sadıqov Zaur və Naidə İsayevlərə əzizləri

**RİZVAN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ARTİ-nin yanında Tədris Resursları Mərkəzinin kollektivi ümumtəhsil məktəbləri üçün coğrafiya dərsliklərinin həmmüəllifi

**YELENA ŞABANOVANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.